

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 2 (20.903)

8 yanvar 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Yanvarın 7-də paytaxtda Azərbaycanın ən böyük tibb müəssisəsi olan Bakı Sağlamlıq Mərkəzi istifadəyə verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılışda iştirak etmişlər.

Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycan Prezidenti və xanımı Bakı Sağlamlıq Mərkəzində yaradılmış şəraitlə tanış oldular.

Bakı Sağlamlıq Mərkəzi Prezident İlham Əliyevin 2010-cu il 6 avqust tarixli Sərəncamı əsasında inşa olunmuşdur. Dövlətimizin başçısı 2011-ci ilin iyulunda mərkəzin təməlqoyma mərasimində iştirak etmişdir.

Yeni tibb ocağı barədə Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi.

Qeyd edildi ki, 50 min kvadratmetr sahəsi olan bu tibb müəssisəsi 550 çarpayılıqdır. Mərkəz ən müasir avadanlıqla təchiz edilmişdir. Burada tibbin ən son elmi-texniki yenilikləri tətbiq olunmuşdur. Mərkəzdə tibbin bütün sahələri üzrə kompleks müayinə və müalicələrin aparılması üçün hər cür şərait yaradılmışdır.

Dövlətimizin başçısı və xanımı sağlamlıq mərkəzinin ayrı-ayrı şöbələrində yaradılan şərait və müasir tibbi avadanlıqla tanış oldular.

Prezident İlham Əliyev Bakı Sağlamlıq Mərkəzi ilə tanışlıqdan sonra həkim kollektivi ilə görüşdü.

Sonda xatirə şəkli çəkdirildi.

# Sədərək rayonunda məktəb istifadəyə verilmişdir

Yanvarın 7-də Sədərək kənd 1 nömrəli tam orta məktəbin yeni binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış mərasimində iştirak etmişdir.

Tədbirdə çıxış edən Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov demişdir ki, aparılan quruculuq və abadlıq işləri Sədərək rayonunu abad yaşayış məntəqəsinə çevirmişdir. Rayonda digər sahələrlə yanaşı, təhsilin inkişafına da xüsusi diqqət yetirilir. Son illər Sədərək rayonunda 1 məktəb, 2 uşaq bağçası və Şahmat Məktəbi üçün inzibati bina inşa edilmiş, aparılan abadlıq işləri sayəsində yaşayış məntəqələrinin siması tamamilə dəyişmişdir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, rayonda təhsil uğurları ilbəil artmaqdadır. Ötən tədris ilində rayonun ümumtəhsil məktəblərini bitirən məzunlardan 31-i ali məktəblərə qəbul olmuşdur. Həbib İbrahimov yaradılan şəraitə və göstərilən qayğıya görə rayon sakinləri adından minnətdarlıq etmişdir.

Müəllim Vəfa Həsənova bildirmişdir ki, məktəb binasında yaradılan şərait, müasir informasiya texnologiyalarının tətbiqi təhsilin keyfiyyətini xeyli yüksəldəcəkdir. Çünki müasir məktəb binası tədrisin günün tələbləri səviyyəsində qurulmasına, dərslərin daha yaxşı mənimsənilməsinə imkan verir. Yaradılan şəraitin müqabilində pedaqoji kollektiv daha səylə işləyəcək, gələcəyimiz üçün savadlı və vətənpərvər gənc nəsil yetişdirəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Sədərək kənd 1 nömrəli tam orta məktəbin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***"Məktəb təhsil verməklə yanaşı, eyni zamanda gəncləri müstəqil həyata hazırlayan tərbiyə ocağıdır"*** fikrini xatırladaraq demişdir: "Şagirdlər məktəblərdə yaxşı təhsil almalı, müasir informasiya texnologiyalarını öyrənməli, ölkəmizin gələcəyi üçün əsl vətəndaş kimi böyüməlidirlər. Bunun üçün müasir tədris şəraitinin yaradılması və yeni məktəb binalarının tikilməsi vacib şərtdir. Ona görə də ölkəmizdə təhsilin inkişafına, məktəblərin müasir tələblər səviyyəsində qurulmasına xüsusi diqqət yetirilir. Sədərək rayonunda müasir tələblərə cavab verən məktəb binasının istifadəyə verilməsi də dövlətimiz tərəfindən məktəb işinə göstərilən qayğının daha bir ifadəsidir.



Ölkə Prezidenti cənab İlham Əliyev təhsilin, məktəb işinin əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: ***"Məktəblərdə şərait, tədrisin səviyyəsi elə olmalıdır ki, uşaqlar, gənclər yaxşı təhsil ala bilsinlər"***. Bu gün istifadəyə verilən məktəb binasında da tədrisin müasir tələblər səviyyəsində qurulması üçün hər cür şərait vardır. İnformasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmuş məktəb binasında 5 elektron lövhəli sinif yaradılmış, internetə qoşulmuş 76 kompüter, eyni zamanda gənclərin sağlam böyüməsi üçün idman zalı və açıq idman qurğuları istifadəyə verilir. Bütün bunlar məktəbdə gənclərin hərtərəfli formalaşmasına səbəb olacaqdır".

Ali Məclisin Sədri demişdir: "Gənclər təhsil almaqla yanaşı, müxtəlif peşələrə də yiyələnməli, gələcəkdə ölkəmizin inkişafında yaxından iştirak etməlidirlər. Bu mənada ümumtəhsil məktəblərinin üzərinə mühüm vəzifələr düşür".

Ali Məclisin Sədri məktəbin nailiyyətlərinin uğurlu olduğunu bildirərək demişdir ki, ötən tədris ilində məktəbin məzunlarından 15-i ali məktəblərə, 4-ü orta ixtisas məktəbinə, 1-i isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olmuşdur. Yaradılan şərait gələcəkdə qazanılan uğurların daha da artırılmasına imkan verəcəkdir. Ali Məclisin Sədri qazanılan nailiyyətlərə görə məktəbin kollektivinə təşəkkürünü bildirmiş, onlara tədrisdə uğurlar arzulamışdır.





Sonra Ali Məclisin Sədri Sədərək rayon ümumtəhsil məktəblərində əla qiymətlərlə oxuyan bir qrup şagirdə kompüter dəstləri hədiyyə etmişdir.

Açılışı bildirən lent kəsildikdən sonra məktəb binasına baxış olmuşdur.

828 şagird yerlik məktəb binası 3 mərtəbədən ibarətdir. Binada 46 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 4 kompüter otağı, 2 müəllimlər otağı, kitabxana, idman zalı və bufet vardır.

Ümumtəhsil məktəblərində kitabxanalardan səmərəli istifadə vacib məsələdir. Məktəbin kitabxana fondunda 15 minə yaxın ədəbiyyat vardır. Baxış zamanı şagirdlərin bilik və bacarıqlarına, eləcə də onların mütaliə vərdişlərini artırmağa imkan verən tədbirlərin təşkil olunması və kitabxana günlərinin keçirilməsinin əhəmiyyəti qeyd olunmuşdur.

Ali Məclisin Sədri birinci siniflərdə şagirdlərin dərs prosesi ilə maraqlanmışdır. Bildirilmişdir ki, 2013-2014-cü tədris ilində Sədərək kənd 1 nömrəli tam orta məktəbdə birinci sinfə 73 şagird qəbul olmuşdur. Şagirdlərin məktəbəhazırlıq kurslarına cəlb edilməsi, tədrisin nəzəri və praktik metodlarla aparılması keçilən dərslərin asan mənimsənilməsinə imkan verir.

İnformasiya texnologiyalarından istifadə etməklə qurulan müasir təhsil modeli pedaqoji kollektiv qarşısında yeni tələblər və vəzifələr qoyur. Muxtar respublikanın ümumtəhsil məktəblərinin müəllimləri həm də informasiya texnologiyalarından istifadə üzrə təlimlərdə iştirak edirlər. Bu da dərs prosesini sadələşdirməklə yanaşı, müəllim və şagirdlərin informasiya texnologiyalarından istifadə imkanlarını da xeyli artırır. Məktəbdə quraşdırılan kompüterlər də müəllim və şagirdlərin tədrisyönümlü saytlardan istifadəsinə, onların müxtəlif fənlər üzrə ətraflı məlumatlar əldə etmələrinə şərait yaradacaqdır.

Tədris prosesində elektron lövhədən istifadə dərslərin əyaniliyini təmin edir. Elektron lövhələrdə şagirdlər istənilən kimyəvi reaksiyanın, fiziki, bioloji, coğrafi proseslərin izahını və videogörüntülərini, müxtəlif cihazların, qurğuların, texniki vasitələrin işləmə prinsiplərini virtual olaraq izləyirlər. Bu isə onların nəzəri biliklərini, praktik bacarıq və təcrübələrini xeyli təkmilləşdirir, eləcə də tədris materiallarının ətraflı dərk olunmasına şərait yaradır.

Ardı 2-ci səhifədə





Sədərək kənd 1 nömrəli tam orta məktəbdə quraşdırılan elektron lövhələr də tədrisin keyfiyyətini xeyli yüksəldəcəkdir.

Kimya, biologiya və fizika laboratoriyalarında sınaq təcrübələrinin aparılması üçün müxtəlif cihaz və alətlər qoyulmuş, hərbi kabinədə şagirdlərə hərbi biliklərin öyrədilməsi üçün lazımi şərait yaradılmışdır. Məktəbdə şagirdlərin ilkin hərbi biliklərə yiyələnməsi və vətənpərvərlik ruhunda tərbiyəsi, eləcə də hərbi idman oyunlarına maraqlarının artırılması və yarışlarda iştiraklarının təmin edilməsi diqqət mərkəzində saxlanılır.

Məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir ki, Sədərək kənd 1 nömrəli tam orta məktəbdə şagirdlərin hərtərəfli biliklərə yiyələnməsi üçün lazımi şərait yaradılıb. Kollektivin əsas vəzifəsi bu şəraitdən səmərəli istifadə etmək, bilikli və vətənpərvər gənclər yetişdirməkdir. Çünki məktəb təhsil verməklə yanaşı, ölkənin gələcəyini də hazırlayır. Son illər məktəb kollektivi fəaliyyətini günün tələbləri səviyyəsində qurmuşdur. Ona görə də müəllimlərin əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmiş, onlardan 1-i “Tərəqqi” medalı ilə təltif olunmuş, 1 nəfəri Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi fəxri adına layiq görülmüş, 1-i isə “İlin ən yaxşı müəllimi” müsabiqəsinin qalibi olmuşdur. Ali Məclisin Sədri kollektivə tədrisdə uğurlar arzulamışdır.

Müəllimlər yaradılan şəraitə görə minnətdarlıq edərək demişlər ki, pedaqoji kollektiv üzərinə düşən vəzifələri dərindən dərk edir, məktəbdə təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində səylə çalışır.

Məktəbin həyətində abadlıq işləri aparılmış, işıqlandırma sistemi quraşdırılmış, futbol meydançası və açıq idman qurğuları istifadəyə verilmişdir.

* * *

Məktəb binası ilə tanışlıqdan sonra sakinlərlə görüşən Ali Məclisin Sədri demişdir ki, son illər Sədərək rayonunun sosial-iqtisadi inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, yeni inzibati binalar tikilmiş, insanların yaşayış səviyyəsi yüksəldilmiş, sosial problemləri həll olunmuş, məskunlaşma artmışdır. Hər il rayonda müxtəlif sahələr üzrə tikinti-quruculuq işləri aparılır. Hazırda suvarma tədbirlərini yaxşılaşdırmaq üçün yeni nasos stansiyası tikilir, içməli su və kanalizasiya sistemləri yenidən qurulur. Görülən bu işlər rayonda əkinçiliyin inkişafına, təsərrüfatların genişləndirilməsinə, əhalinin kommunal-məişət şəraitinin daha da yaxşılaşdırılmasına imkan verəcəkdir. 2014-cü ilin ilk iş günündə Sədərək rayonunda yeni məktəb binasının istifadəyə verilməsi də həyata keçirilən quruculuq tədbirlərinin davamıdır. Ali Məclisin Sədri rayonun inkişafında fəal iştirak etdiklərinə görə sakinlərə təşəkkürünü bildirmiş, onlara gələcək həyatlarında və işlərində uğurlar arzulamışdır.

Rayon sakinləri adından minnətdarlıq edən Həsən Rzayev demişdir ki, sərhəd yaşayış məntəqəsi olan Sədərək bu gün özünün inkişaf və tərəqqi dövrünü yaşayır. Bu inkişaf bir tərəfdən sakinlərin bu torpağa bağlılığından irəli gəlirsə, digər tərəfdən göstərilən dövlət qayğısı nəticəsində mümkün olmuşdur. Həsən Rzayev bundan sonra da rayonun inkişafında yaxından iştirak edəcəklərini bildirmişdir.



## Fövqəladə Hallar Nazirliyinin Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi üçün yeni bina tikilir



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin maddi-texniki bazasının gücləndirilməsi, nazirliyin və onun struktur qurumlarının iş şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Bu gün muxtar respublikada fövqəladə hadisələrin baş verməzdən qarşının alınması, yaşayış məntəqələrinin və əhalinin təbii və texnogen hadisələrdən qorunması diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi üçün yeni bina inşa olunur.

Yanvarın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tikinti aparılan əraziyə və binanın layihəsinə baxmışdır.

Məlumat verilmişdir ki, binanın yerləşdiyi ərazi rayonun yaşayış məntəqələri istiqamətində şəxsi heyətin və avtomobillərin hərəkətinin təşkilinə uyğun seçilmişdir. Hazırda binanın özülü qazılmış və ilkin dəmir-beton işləri görülmüşdür. Ərazidə inzibati bina, yeraltı ehtiyat su hovuzu, texniki qaraj və təlim qülləsi tikiləcək, növbətçi yanğınsöndürmə xidmətinin fəaliyyətinin təmin olunması üçün hər cür şərait yaradılacaqdır.

Ali Məclisin Sədri tikinti işlərinin gedişi ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## “Zümrüd” Kiçik Müəssisəsində yeni istehsal sahəsi yaradılır

***“Zümrüd” Kiçik Müəssisəsi 1997-ci ildə fərdi sifarişlərə uyğun kişi və qadın geyimləri tikməklə fəaliyyətə başlamışdır. 2010-cu ilin yanvar ayında isə istehsal sahəsini genişləndirmək üçün Sahibkarlığa Kömək Fondundan 560 min manat güzəştli kredit verilmiş, Naxçıvan şəhərində zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət yeni bina inşa edilmişdir.***

Müəssisədə yeni istehsal sahəsinin yaradılmasına və müasir texnoloji avadanlıqların alınmasına 810 min manat vəsait sərf olunmuşdur ki, bunun da 250 min manatı daxili imkanlar hesabına ödənilmişdir.

Ümumi ərazisi 590 kvadratmetr olan müəssisədə Almaniya, Yaponiya və Türkiyə istehsalı olan 70 adda ən müasir biçim, ölçü, ütü və tikiş avadanlıqları quraşdırılmış, istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilmişdir. Yeni istehsal sahəsinin yaradılması daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsul istehsalı ilə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynamışdır.

İstehsal prosesi avtomatlaşdırılmış müəssisədə məktəbli forması, ali məktəblərin tələbə və müəllimləri, hüquq-mühafizə orqanları əməkdaşları üçün xüsusi formalar və müxtəlif geyim dəstləri tikilir.

“Zümrüd” Kiçik Müəssisəsinin kostyum istehsalı sahəsi fəaliyyətə başlayanadək bu məhsullara olan tələbatın çox hissəsi idxal hesabına ödənilirdi. Lakin gündəlik istehsal gücü 100 dəst kostyum olan istehsal sahəsinin yaradılması ilə həmin məhsullara olan tələbatın daxili imkanlar hesabına ödənilməsi təmin edilmişdir. Hazırda müəssisədə sifarişə uyğun Naxçıvan Muxtar Respublikası Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin, eləcə də Ədliyyə Nazirliyinin Penitensiar Xidməti əməkdaşları üçün xüsusi geyim formaları tikilir. Bundan başqa, vətəndaşların fərdi sifarişləri də qəbul olunur.

Sifariş verilən xüsusi geyim formalarının kompleks şəkildə müəssisədə istehsal edilməsi məqsədilə yeni – köynək istehsalı sahəsinin yaradılmasına başlanmışdır. Bu məqsədlə biznes-plan hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim olunmuşdur. Layihənin reallaşması üçün Sahibkarlığa Kömək Fondundan 165 min manat güzəştli kredit ayrılmışdır. Naxçıvan şəhərinin Əliabad qəsəbəsindəki Əcəmi-39 ünvanında yerləşən binada yeni istehsal sahəsi yaratmaq üçün təmir-bərpa və yenidənqurma işləri aparılmış, su, istilik və kanalizasiya sistemləri yenidən qurulmuş, elektrik xətləri çəkilmiş, arakəsmələr hörülmüş, suvaq işləri başa çatdırılmışdır. Layihəyə uyğun olaraq, ümumi sahəsi 654 kvadratmetr olan binada istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, iaşə xidməti göstərilməsi üçün yeməkxana və inzibati heyət üçün ayrı-ayrı iş otaqları yaradılmışdır. Yaxın vaxtlarda fəaliyyətə başlaması nəzərdə tutulan köynək istehsalı sahəsində Yaponiya və Türkiyədə istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılacaq. Artıq Türkiyənin “Talay makina” şirkəti ilə müqavilə bağlanılmışdır. İstehsal gücü gündə 1000 ədəd köynək olacaq yeni istehsal sahəsi daxili bazarın tələbatını tamamilə ödəyəcəkdir.

**Kərəm HƏSƏNOV**

**Babək rayonu ulu öndərimiz Heydər Əliyevin hərtərəfli diqqət və qayğısı sayəsində inkişaf yolu keçən və tərəqqiyə qovuşan bölgələrimizdən biridir. Müstəqillik qazandığımız illərdə də bu qayğı davam etdirilib, həm rayon mərkəzində, həm də kənd yaşayış məntəqələrində xeyli quruculuq və abadlıq tədbirləri həyata keçirilib. Rayonda diqqəti ilk cəlb edən məqamlardan biri isə kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması istiqamətində görülən işlərdir. Naxçıvan şəhərinin 13 kilometrliyində qərar tutan Şıxmahmud kəndi belə yaşayış məntəqələrindən biridir. Son illər Şıxmahmud kəndində bir neçə yeni obyektin istifadəyə verilməsi sakinlərə böyük dövlət qayğısının ifadəsi kimi yadda qalıb.**

# Qəsəbə timsallı kənd yaşayış məntəqəsi:

## *Şıxmahmud inkişaf və tərəqqinin ön sırasındadır*

### *Tarixi mənbələr kənd və kəndin adı barədə nə deyir?*

Əvvəlcə onu deyim ki, kompleks quruculuq tədbirləri hesabına bu gün siması dəyişən Şıxmahmud kəndi muxtar respublikanın qədim yaşayış məntəqələrindən biridir. Üz tutduğum bütün yaşayış məntəqələrində ilk olaraq həmin yaşayış məntəqələrinin tarixi və daşıdığı adın etimologiyası ilə maraqlanmağım bir adətə çevrilib. Bu kəndin “Şıxmahmud” adlandırılması barədə ilk məlumatı qəzetimizdə dərc olunan yazılardan birində oxumuşdum. Bir neçə digər tarixi mənbələrdə də bəzi bilgilərlə rastlaşmışdım. Həmin məlumatlara görə, Naxçıvan-Şahbuz magistral yolunun kənarında yerləşən Şıxmahmud kəndində məskunlaşmanın tarixi 2 min ilə yaxındır. Kəndin coğrafi mövqeyi, təbii şəraiti bu yaşayış məntəqəsini karvan-ticarət yollarının mərkəzinə çevirib. Bir vaxtlar Böyük İpək Yolundan istifadə edən Qərbi Azərbaycanın qədim Çobankərə və Türkiyə ilə sərhəddə yerləşən Salaçlı kəndlərinin dəvəçi dəstələri Naxçıvandan keçərək Biçənək yolu ilə Azərbaycanın müxtəlif bölgələrinə gedər, Dəmirqapı Dərbəndə qədər yük daşıyardılar. Başçıları Şeyx Mahmud adlı dindar bir şəxs olan dəvəçilərin bu yolda düşərgə saldıqları iki məkandan biri Şıxmahmud kəndinin sol səmti, Naxçıvançayın kənarı olub. Dəvəçilər indiki Şıxmahmud kəndinin yaxınlığındakı vadilərdə dəvə sürüləri bəsləyərdilər.

Kəndin adı ilə bağlı bildiklərimizin nə dərəcədə həqiqətə uyğun olduğunu dəqiqləşdirmək üçün filologiya elmləri doktoru Adil Bağırovun “Naxçıvan oykonimləri” kitabına üz tutduq. Alim yazır ki, bu kənd adı mənbələrdə Şeyx Mahmud kimi qeydə alınıb. Canlı danışıq dilində tədricən “Şıxmahmud” şəklinə düşüb. Bəzi fikirlərə görə, bu adın “Şahmahmud” şəklində olduğu da iddia edilir. Antroponim səciyyəli bu ad dini rütbə bildirən “şeyx” sözü ilə Mahmud şəxs adının birləşməsindən əmələ gəlib.

Kəndin qədim tarixi ilə bağlı digər bir mənbə yaşayış məntəqəsinin yaxınlığında olan Antik dövrə aid arxeoloji abidədir. Şıxmahmud nekropolu 1989-cu ildə təsadüfən aşkar edilib. Buradan gil qab qırıqları və dördkünc formalı qəbir, qəbirlərdən çəhrayı, yaşıl və göy rəngdə 4 ədəd şüşə qab tapılıb. Abidədə həmçinin tünd mavi rəngdə 78 ədəd şüşə muncuq aşkara çıxarılıb. Nekropol I-III əsrlərə aid edilib.

### *Bu kənddə də kompleks quruculuq tədbirləri həyata keçirilib*

Şıxmahmud kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik həm də Xəlilli kəndini əhatə edir. Həmin yaşayış məntəqəsi barədə gələn yazılarımızın birində söhbət açacağıq. Bu yazıda isə məqsədimiz hərtərəfli qayğı ilə əhatə olunmuş Şıxmahmudda həyata keçirilən quruculuq tədbirlərini, kənd sakinlərinin görülən işlərdən doğan ürək sözlərini, sevinc hisslərini oxucularımıza çatdırmaqdır. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Əli Aslanov deyir ki, 2925 sakinin 800 təsərrüfatda birləşdiyi Şıxmahmudda 70 il ərzində bu həcmdə tikinti işi aparılmayıb. Kənddəki qurumların hamısı uyğunlaşdırılmış binalarda fəaliyyət göstərib. Yeni kənd mərkəzi müasir arxitektura üslubu ilə Şıxmahmuda xüsusi yaraşıq verən binalardan biridir. Burada inzibati ərazi dairəsi üzrə nümayəndəlik, kitabxana, mədəniyyət evi, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, polis və baytarlıq məntəqələri, poçt-rabitə bölməsi üçün hərtərəfli iş şəraiti yaradılıb. İlk diqqətimizi cəlb edən kitabxana oldu.

Kitabxana fondunda 17 mindən artıq kitab var. Hərtərəfli şərait yaradılması hesabına burada müvafiq tədbirlər keçirilməsi təmin olunub; bu da kitabxana-oxucu əlaqələrinin yaxşılaşdırılmasına imkan verib. Mədəniyyət müəssisəsinin gündəlik dövri mətbuatla təmin olunması kənd adamlarının respublikada gedən prosesləri izləməsinə imkan yaradır.

Kənd mərkəzində yerləşən digər qurumların fəaliyyəti də belə qənaət yaratdı ki, onlar üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsinə məsuliyyət hissi ilə yanaşır, əməli işləri ilə bu qayğıya cavab verməyə səy göstərirlər.

Kənd mərkəzinin yerləşdiyi ərazidə diqqəti cəlb edən digər bir yaraşıqlı binadan ətrafa xoş musiqi sədaları yayılır. Bu, Şıxmahmud Kənd Uşaq Musiqi Məktəbidir. Bir vaxtlar rayon musiqi məktəbinin filialı kimi fəaliyyətə başlayan, 1991-ci ildə müstəqil məktəbə çevrilən bu təhsil ocağına musiqi istedadı olan uşaqlar cəlb edilib. Məktəbdə Fortepiano və tar, kamança, saz, qarmon, nağara siniflərindən ibarət Xalq çalğı alətləri şöbələri fəaliyyət göstərir. Kollektivin ixtiyarına geniş və işıqlı siniflər, direktor və müəllimlər otağı, həmçinin kitabxana verilib. Burada 254 şagird musiqinin ilkin sirlərinə yiyələnir. Onların təhsili ilə 51 müəllim məşğul olur.

Musiqi məktəbi bir sıra uğurlar qazanmış təhsil ocaqlarından biridir. Rayonda və muxtar respublikada keçirilən mədəni-kütləvi tədbirlərə qatılan gənc musiqiçilərin uğurları getdikcə çoxalır. Yeni binanın istifadəyə verilməsi isə bu uğurların daha da artırılmasına şərait yaradıb. Məktəbin məzunlarından əksəriyyətinin Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində və Naxçıvan Musiqi Kollecində təhsillərini davam etdirməsi burada tədrisin yüksək səviyyədə qurulmasının nəticəsidir.

Şıxmahmud kəndində istifadəyə verilən həkim ambulatoriyası Şıxmahmud və Xəlilli kəndlərinin sakinlərinə xidmət göstərir.

Şıxmahmudlulara böyük sevinc hissləri yaşadan yeni obyektlərdən biri də kənddə təhsilin səviyyəsini yüksəltmək məqsədilə tikilən kənd tam orta məktəbinin binasıdır.

Kənddəki mağazada sənaye və ərzaq məhsullarının satışı təşkil olunub. Şıxmahmudlular məişət evinin xidmətindən də razılıq edirlər. Burada bərbər, dərzi, ayaqqabı və məişət cihazlarının təmiri sexi, ət satışı mağazası, digər bir binada isə aptek, çay evi əhalinin istifadəsinə verilib.

Dini dəyərlərə böyük ehtiram əlaməti olaraq kənddə yenidən qurulan məscid dindarlar və ağsaqqallar tərəfindən rəğbət hissi ilə qarşılanıb.

Qeyd edək ki, bütün obyektlərin yerləşdikləri ərazilərdə yaşıllıq zolaqları, meyvə bağları salınıb, abadlıq işləri həyata keçirilib. Daha bir quruculuq tədbiri isə həmin obyektləri bir-birinə birləşdirən 3 kilometrlik dairəvi kənd yoluna qara örtük döşənməsi, piyada yollarının kənarlarına bardürlər düzülməsi və yol boyunca ağaclar əkilməsidir.

### *Kənd adamları dedilər ki…*

Quruculuq ünvanlarında kənd adamları ilə də həmsöhbət olduq. Kitabxana müdiri Tamella Məmmədova bildirdi ki, aparılan kompleks quruculuq tədbirləri Şıxmahmudu qəsəbə timsallı müasir kəndə çevirib. Təbii ki, bütün bunlar insanların qurub-yaratmaq əzminə öz təsirini göstərib. Odur ki, kənd adamları qiymətli sərvət olan torpaqdan möhkəm yapışıblar. Onlara bu sahədə də hərtərəfli köməkliklər göstərilir. Torpaq mülkiyyətçiləri yaradılan şəraitdən səmərəli istifadə etməyə səy göstərir, muxtar respublika iqtisadiyyatının gücləndirilməsinə öz töhfələrini verir, daxili bazarda yerli istehsalın xüsusi çəkisinin artırılmasına çalışırlar. Bir mədəniyyət işçisi kimi onu da deyim ki, onlar asudə vaxtlarını kitabxanada, kənd mədəniyyət evində hazırlanan tədbirlərdə fəal iştirak etməklə keçirirlər.

Kənd musiqi məktəbinin direktoru Adıgözəl Rzalı: “Gənc musiqi həvəskarlarının ixtiyarına verilən Şıxmahmud Kənd Uşaq Musiqi Məktəbi mədəniyyətin inkişafına göstərilən qayğının təcəssümüdür. Kollektivimiz bu qayğının mahiyyətini dərindən dərk edir, milli musiqi mədəniyyətimizi bugünkü məktəblilərə aşılayır”.

Ambulatoriyanın baş həkimi Yeganə Abbasova: “İnsan ona göstərilən qayğını görəndə, təbii ki, onun qurub-yaratmaq əzmi yüksəlir. Bu hissi bu gün Şıxmahmudda hamı yaşayır. Biz də öz sahəmizin üzərinə düşən vəzifələri yerinə yetirməyə çalışırıq. Bir ziyalı kimi Şıxmahmuda, onun yurdsevər insanlarına göstərilən qayğıya görə dövlətimizə minnətdarlığımı bildirirəm”.

***Şıxmahmud kəndində gördüklərimiz muxtar respublikada ulu öndərimiz Heydər Əliyevin quruculuq siyasətinin uğurla davam etdirilməsinin bəhrələridir. Ona görə də qurulanları, yaradılanları qorumağı, gələcək nəslə ərmağan etməyi hər bir şıxmahmudlu özünün vətəndaşlıq borcu sayır.***

**Muxtar MƏMMƏDOV**

# Sığorta ödənişləri hansı hallar üçün nəzərdə tutulmuşdur?

*Cəmiyyətdə iqtisadi və sosial münasibətlər dərinləşdikcə sığorta xidmətlərinin əhəmiyyəti daha da artır. Sığortanın faydalarından istifadə edərək artıq daha çox vətəndaş sığorta növləri vasitəsilə müxtəlif riskləri zamanət altına almağa maraqlı olur. Bununla əlaqədar, sığorta sahəsində aparılan işlərin təcrübəsi göstərir ki, tərəflərin maraqları arasında müəyyən riskli hadisələr zamanı ödənilən sığorta məbləği məsələləri mühüm yer tutur. Ona görə də sığorta fəaliyyətlərinin tənzimlənməsi üzrə bəzi suallara cavab almaq üçün Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinə müraciət etdik. Müsahibimiz agentliyin baş mütəxəssisi Hafiz Hüseynovdur.*

***– Hafiz müəllim, sığorta nədir və ondan nə gözlənilir?***

– İlk olaraq onu qeyd edim ki, sığorta hadisələr zamanı bu hadisələrdən zərər çəkmiş insanların maddi itkilərini aradan qaldırmaq məqsədi güdür. Başqa sözlə, sığorta olunmaq o deməkdir ki, insanlar sığorta agentliyinin təklif etdiyi xidmət müqabilində öz sağlamlığı və əmlakına baş verə biləcək müəyyən gözlənilməz və bədbəxt hadisələr nəticəsində dəymiş zərərlərin nəticəsini aradan qaldıra bilərlər. Sığortadan gözlənilən nəticələr həm iqtisadi, həm də sosial səmərə cəhətdən çox əhəmiyyətlidir. Məsələn, sığortaolunanların ödədikləri haqların mərkəzləşdirilərək baş verən gözlənilməz hadisələr nəticəsində zərər çəkmişlərə verilməsi onun iqtisadi əhəmiyyətini, vətəndaşların əvvəlcədən sığortalanaraq gözlənilməz hadisə nəticəsində dəymiş zərərin nəticələrinin sığortaçılar tərəfindən aradan qaldırılması isə onun sosial əhəmiyyətini əks etdirir.

***– Baş verən hansı riskli hadisələrin nəticələri sığorta predmeti hesab olunur?***

– Qeyd edək ki, həyatda baş verə biləcək müxtəlif hadisələr nəticəsində insanın sağlamlığına və əmlakına zərərlər dəyə bilər. Lakin bunların hamısı sığorta oluna biləcək hadisələr hesab olunmur. Sığorta hadisələri təsadüfi, gözlənilməz, əvvəlcədən müəyyən olunmayan hadisələrdir. Burada xüsusi olaraq vurğulamaq lazımdır ki, sığorta olunmaq riskli hadisənin baş verməsinin qarşısını almır, onun törətdiyi maddi itkiləri aradan qaldırmağa xidmət edir. Məsələn, daşınmaz əmlak sığorta olunub deyə, həmin əmlakın yanmayacağına heç kim zəmanət verə bilməz. Sığorta yalnız yanğın, zəlzələ, subasma və sair kimi təsadüfi, əvvəlcədən bilinməyən, təkrarolunan hadisələrin səbəb olduğu zərərlərin aradan qaldırılmasına xidmət edir. Ona görə də vətəndaşlar nəzərə almalıdırlar ki, hadisənin xarakterində təsadüfilik, gözlənilməzlik olmayan hadisələr üçün sığorta işi aparılmır və bu hadisələr sığorta hadisəsi hesab olunmur. Məsələn, qrunt sularının yer səthinə yaxın olduğu yerdə özünə ev tikən vətəndaşlar burada hər an subasma ehtimalı olduğunu bildikləri üçün bu hadisədən daşınmaz əmlakını sığorta etdirə və müvafiq olaraq da həmin hadisə baş verdikdə sığorta ödənişi tələb edə bilməzlər. Ancaq yanğın, zəlzələ, daşqın və digər qəfil, gözlənilməz hadisələrdən dəyən zərərləri minimumlaşdırmaq üçün sığorta orqanları bağlanılmış müqaviləyə uyğun insanlara dəymiş zərərlərin əvəzini ödəməyə hazırdır. Məsələn, vətəndaşlara məxsus daşınmaz əmlakın icbari sığortası zamanı sığorta agentliyi vətəndaşların ödədiyi sığortahaqqı müqabilində bağlanılan müqavilə əsasında baş verə biləcək yanğın, məişətdə və istehsalatda istifadə olunan qazın partlayışı, elektrik naqillərində baş verən qısaqapanma, buxar qazanlarının, qaz anbarlarının, qaz kəmərlərinin, maşınların, aparatların və digər oxşar qurğuların və ya cihazların partlayışı, su, istilik, kanalizasiya xətlərinin və yanğınsöndürmə sistemlərinin qəzası, habelə qonşu tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən, yaşayış evlərindən və binalarından, mənzillərdən, otaqlardan daxil olan su nəticəsində subasma, hər hansı predmetin və ya onun hissələrinin düşməsi, atılması, dəyməsi, dağılması, axıdılması və digər bu kimi formalarda təsiri, yerüstü nəqliyyat vasitəsinin dəyməsi, təbii fəlakətlər – zəlzələ, vulkan, ildırım düşməsi, fırtına, qasırğa, tufan, dolu, sel, daşqın, leysan, yer sürüşməsi nəticəsində və üçüncü şəxslərin hərəkətləri zamanı dəymiş faktiki zərər həcmində sığorta məbləği ödəməyə hazırdır.

***– Bu sahədə tənzimlənmə necə aparılır?***

– Bütün bu işlər sığortaçı və sığortaolunan vətəndaş arasında müqavilənin bağlanması ilə başlayır. Belə ki, icbari sığorta müqaviləsinin bağlanması sığortaçı ilə sığortaolunanın istəyinə görə deyil, qanunun tələbinə görə aparılır. Çünki icbari sığortanın əsas prinsiplərindən biri onun məcburiliyidir. Qanunda göstərilən şərtlər əsasında sığorta müqaviləsi bağlanıldıqda sığortalıya sığorta agentliyi tərəfindən “sığorta şəhadətnaməsi” adlanan sənəd təqdim olunur. Qeyd edim ki, bu sənəddə sığortaçı və sığortalıya aid olan məlumatlarla bərabər, sığorta predmeti, yəni nəyin sığorta olunduğu, sığorta riskləri, sığorta məbləği, sığortahaqqının məbləği, onun verilməsi qaydası və müddəti göstərilir. Sığorta müqaviləsi bağlanıldıqda təqdim olunan şəhadətnamədə göstərilən məlumatlarla yanaşı, tərəflər arasında hər müqavilə bağlandığı zaman sığorta agentliyinin mütəxəssisləri tərəfindən vətəndaşlara əlavə maarifləndirici məlumatlar da verilir. Bu zaman bu müqavilə üzrə vətəndaşların hüquq və vəzifələri onlara izah olunur, baş verə biləcək riskli hallar zamanı hansı tədbirlərin görüləcəyi və kimlərə müraciət ediləcəyi haqda məlumatlar verilir. Təcrübə göstərir ki, xüsusən sığorta şəhadətnaməsi ilə diqqətlə tanış olmayan bəzi vətəndaşlar istənilən bir hadisə nəticəsində dəymiş zərərə görə sığortaya müraciət edirlər. Ancaq sığorta təminatı qanunda və qaydalarda göstərilən və sığorta şəhadətnaməsində də qeyd olunan hallar üçün verilir.

***– Sığorta ödənişləri zamanı mövcud qanun nəyi tələb edir?***

– Bir məsələni qeyd etmək istəyirəm ki, cəmiyyətimizdə mövcud olan bütün iqtisadi münasibətlər kimi, sığorta da burada iştirak edən tərəflərin qarşılıqlı maraq və mənafeləri üzərində qurulmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, icbari sığortalar üzrə baş vermiş hadisələrə yanaşma həmin icbari sığorta üzrə qanunla müəyyən olunmuş və sığorta müqaviləsində göstərilmiş hadisələr dairəsində olmalıdır. Könüllü sığortalara isə müqavilə bağlanılan sığorta növü üzrə müəyyən olunmuş qaydalarda göstərilən və müqavilədə əks olunan hadisələr dairəsində baxılmalıdır.

Əmlakı, sağlamlığı zərər çəkmiş vətəndaşların müraciətlərinə icbari sığortalar üzrə qanunla və bağlanılmış müqaviləyə, könüllü sığortada isə qaydalara və bağlanılmış müqaviləyə uyğun olaraq baxılır, işin mahiyyəti vətəndaşlara izah olunur, müqaviləyə uyğun cavab verilir.

***– Bəs bu sahədə işlərin səmərəli aparılması üçün nə tələb olunur?***

– Sığorta fəaliyyəti məsuliyyət tələb edən bir işdir və bu işin dəqiq yerinə yetirilməsi tələb olunur. Öz növbəsində, on minlərlə vətəndaşın bir çox növdən olan sığorta müqavilələrinə qoşulması üçün lazımi işlərin görülməsi və ola biləcək təsadüfi, bədbəxt hallardan zərərçəkmiş sığortalılara ödənişlərin verilməsi bütöv bir kompleks işlərin nəticəsində mümkün olur.

Bunlardan əlavə, sığorta ictimai əhəmiyyət kəsb edir. Çünki insanların həyatı, əmlakı, mülki məsuliyyətinin sığorta olunması cəmiyyətdə hər kəs üçün faydalıdır.

**– Müsahibə üçün sağ olun!**

**Əli CABBAROV**

# Məktəblilərin ekoloji tərbiyəsinə diqqət artırılır

***Ekoloji tərbiyə işində müxtəlif yollardan, forma və metodlardan istifadə edilir. Ekoloji tərbiyə hələ kiçik yaşlardan başlanmalıdır. Erkən yaşlardan uşaqlarda təbiət hadisələrinə düzgün baxış formalaşdırmaq, onlara təbiəti, canlıları sevdirmək, uşaq qəlbində xeyirxahlıq hissləri oyatmaq lazımdır. Kiçik yaşlardan buna diqqət yetirilməzsə, uşaqda təbiətə, heyvan və quşlara qarşı laqeydlik, hətta qəddarlıq, rəhmsizlik hissləri baş qaldıra bilər. Təbiətə qarşı qəddarlıq təbiət gözəlliklərinə laqeydlikdən, ətraf aləmə qeyri-həssas münasibətdən, bir sözlə, uşaq qəlbində xeyirxahlıq hisslərinin kütləşməsindən başlanır.***

Ekoloji tərbiyə sahəsində dərslərdə aparılan iş sinifdənxaric və məktəbdənkənar tədbirlər yolu ilə daha da dərinləşdirilir. Yerli şəraitdən asılı olaraq, təbiəti mühafizə işinin müxtəlif formalarından istifadə olunur: məktəb meşəçiliyi, gənc təbiətçi dərnək və klubları, məktəb qoruqları, meyvə bağları, şagird istehsalat briqadaları, ekologiya üzrə olimpiada və viktorinalar, məktəb ekologiya cəmiyyəti, ekologiya ayları, ekologiya reydləri və sair belə maraqlı formalardandır. Məktəblərdə və yaşayış yerlərində yaşıllıq iməciliklərinin keçirilməsi, mavi və yaşıl keşikçi dəstələrinin yaradılması, ilk çiçək bayramlarının, meşə və quş günlərinin, təbiət dostları və gənc bağbanların müsabiqələrinin təşkili kimi tədbirləri məktəblərdə ənənə şəklinə salmaq lazımdır.

Babək Rayon Ekoloji Tərbiyə Mərkəzi də öz işini bu istiqamətdə qurmağa çalışır. 1991-ci ildən fəaliyyətə başlayan mərkəzin rayonun Nehrəm, Cəhri, Vayxır, Şıxmahmud və digər ümumtəhsil məktəblərində 55 qrupu yaradılıb. Bu qruplara 850 şagird cəlb edilib. Onlarda doğma yurdun təbiətinə məhəbbət hissləri formalaşdırmaq üçün mərkəzin müəllimləri bütün imkanlarından istifadə edirlər. Mərkəzdə “Ekologiya”, “Fauna və flora”, “Ekoloji mədəniyyət”, “Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri”, “Naxçıvan Muxtar Respublikasının heyvanat aləmi”, “Gülçülük və insan psixologiyası” və başqa dərnəklər öz məşğələlərini günün tələbləri səviyyəsində qurmağa səy göstərir, mövzu ilə əlaqədar bəzi məşğələlərin təbiətin qoynunda keçilməsinə çalışılır. Dərnək üzvlərinin rayon və respublika səviyyəli tədbirlərdə fəal iştirak etmələri diqqət mərkəzində saxlanılır. Onların muxtar respublikanın təbiət abidələrinə ekskursiyaları təşkil olunur. Bu ekskursiyalarda diyarımızın zəngin fauna və florası barədə söhbətlər aparılır, herbarilər düzəldilir. Mərkəzdə həmin herbarilərdən ibarət sərgi hazırlanır.

Mərkəzin öhdəsində 3 hektara yaxın torpaq sahəsi var. Ötən il bu ərazidə muxtar respublikanın iqliminə uyğun 1000-ə yaxın ting əkilib.

Tədris ilinin əvvəllərində mərkəzin dərnək üzvləri üçün Heydər Əliyev Muzeyində “Ulu öndər Heydər Əliyev və Azərbaycan təbiəti” mövzusunda açıq dərs keçilib. Ümummilli liderin 90 illik yubileyi və muxtar respublikamızda 2013-cü ilin “Heydər Əliyev ili” elan edilməsi münasibətilə silsilə tədbirlər keçirilib. 2014-cü ildə – “Muxtariyyət ili”ndə də müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Mərkəzin kollektivi bundan sonra da qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə çalışacaq, məktəblilərin ekoloji tərbiyəsinin düzgün formalaşdırılmasında fəallıq göstərəcəkdir.

**Ramiz BABAYEV**
***Babək Rayon Ekoloji Tərbiyə Mərkəzinin direktoru***

## Naxçıvan Muxtar Respublikası üzrə 2013-cü ilin dekabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/S | Şəhər və rayonlar | Təbii qazın həcmi | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 734054 | 73405 | 73565 | 100,2 |
| 2. | Şərur rayonu | 2217051 | 221705 | 222098 | 100,2 |
| 3. | Sədərək rayonu | 294780 | 29478 | 29508 | 100,1 |
| 4. | Naxçıvan şəhəri | 2867429 | 286743 | 286743 | 100,0 |
| 5. | Babək rayonu | 2055534 | 205553 | 205553 | 100,0 |
| 6. | Ordubad rayonu | 1163666 | 116367 | 116367 | 100,0 |
| 7. | Culfa rayonu | 1388136 | 138814 | 138814 | 100,0 |
| 8. | Kəngərli rayonu | 804992 | 80499 | 80499 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 9402368 | 939673 | 944190 | 100,5 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **20928010** | **2092237** | **2097337** | **100,2** |

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2013-cü ilin dekabr ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi (%) |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1510 | 90,6 | 91,5 | 101,0 |
| 2. | Culfa rayonu | 1329 | 79,7 | 80,4 | 100,9 |
| 3. | Şahbuz rayonu | 413 | 24,8 | 25,0 | 100,8 |
| 4. | Kəngərli rayonu | 599 | 35,9 | 36,1 | 100,6 |
| 5. | Sədərək rayonu | 324 | 19,4 | 19,5 | 100,5 |
| 6. | Babək rayonu | 1605 | 96,3 | 96,4 | 100,1 |
| 7. | Naxçıvan şəhəri | 4664 | 279,8 | 280,0 | 100,1 |
| 8. | Şərur rayonu | 1838 | 110,3 | 110,3 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 21015 | 1261,0 | 1313,6 | 104,2 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **33297** | **1997,8** | **2052,8** | **102,8** |

**Qeyd:** Dekabr ayında texniki itki nəzərə alınmaqla daxil olan 33 milyon 297 min kilovat-saat elektrik enerjisinin dəyəri 1 milyon 997 min 800 manat olmuş, cəmi 2 milyon 52 min 800 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 102,8 faizini təşkil edir.

***“Bir ömür yaşadım…” Naxçıvan Dövlət Universitetinin “Qeyrət” mətbəəsinin direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, şair Vaqif Məmmədovun çapdan çıxan yeni kitabı belə adlanır.***

*Yeni nəşrlər*

# Bir ömür yaşadım…




Kitabı, başqa sözlə, bir yaradıcı insan ömrünün ötən 65 ilinin hesabatı da adlandırmaq olar. Kitabda müxtəlif illərdə Vaqif Məmmədov və onun yaradıcılığı haqqında elm adamlarının, ictimai xadimlərin, mədəniyyət xadimlərinin yazdıqları fikirlər – rəylər, məqalələr, ona ünvanlanmış müxtəlif məktublar və şeirlər toplanıb. Ümumilikdə, 45-ə yaxın məqalənin dərc olunduğu birinci fəsildə akademik İsa Həbibbəylinin “Sənətə Vaqiflik”, akademik İsmayıl Hacıyevin “Qeyrət qalası Sədərək”, professor Yavuz Axundlunun “Zirvələr sorağında”, Nəbi Xəzrinin “Uğur olsun”, Xanəli Kərimlinin “Zamanın və sözün rəngi”, Asim Yadigarın “Dolğun misralar sorağında”, Qəşəm İsabəylinin “Öz dünyasında olan insan-şair Vaqif Məmmədov”, Elxan Yurdoğlunun “Yaxşı ki, varsınız” adlı məqalələri xüsusilə diqqət çəkir. “Fikirlər və rəylər” adlanan bölmədə akademik Ziya Bünyadov, Xalq yazıçısı İsmayıl Şıxlı, akademik Bəkir Nəbiyev, Xalq yazıçısı Əzizə Cəfərzadə, Xalq şairi Bəxtiyar Vahabzadənin şairin ədəbi yaradıcılığı ilə bağlı fikir və rəyləri təqdim olunub. Məmməd Araz, Nüsrət Kəsəmənli, Nəriman Həsənzadə, Fərman Kərimzadə və başqa ədiblərin məktubları da maraq doğurur. Kitabda müəllifə həsr olunmuş 44 şeir də yer alıb.

Qeyd edək ki, 326 səhifəlik kitabın redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərlidir. Kitab “Qeyrət” nəşriyyatında işıq üzü görüb.

**Elnur KƏLBİZADƏ**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququ anlayışı qanunvericiliklə necə tənzimlənir?***

***Cavab:*** Azərbaycan Respublikası Mülki Məcəlləsinin 226-cı maddəsinə əsasən, yaşayış binasının tərkib hissəsinə mülkiyyət hüququ ümumi paylı daşınmaz mülkiyyətə olan hüquqdur, yəni binanın müəyyən hissələrindən müstəsna istifadə etmək və onların içərisində bəzək-tamamlama işləri aparmaq üçün mülkiyyətçinin xüsusi hüquq əldə etməsidir. Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisi öz otaqlarını idarə etməkdə, onlardan istifadə etməkdə və bəzək-tamamlama işləri aparmaqda sərbəstdir, lakin o, digər belə mülkiyyətçinin eyni hüquqları həyata keçirməsini çətinləşdirməməli və ümumi tikinti elementlərini, qurğuları zədələməməli və ya onların funksiyasını və ya zahiri görkəmini pisləşdirməməlidir. O, öz otaqlarını bütün binanın qüsursuz vəziyyətdə saxlanması və ya onun yaxşı zahiri görkəminin qorunması üçün tələb edilən tərzdə saxlamalıdır. Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisi ona mənsub yaşayış otağına sahiblik, ondan istifadə və ona dair sərəncam hüquqlarını otağın təyinatına uyğun həyata keçirir. Yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisi müqavilə əsasında onu icarəyə verə bilər. Yaşayış binalarında sənaye istehsalatlarının yerləşdirilməsinə yol verilmir.

***Sual:*** ***Bağışlama müqaviləsi nədir?***

***Cavab:*** Azərbaycan Respublikası Mülki Məcəlləsinin 666-cı maddəsinə əsasən, bağışlama müqaviləsi sağ ikən bağlanan elə müqavilədir ki, onun əsasında hədiyyə verən öz əmlakının bir hissəsini bağışlamaqla hədiyyə alanı zənginləşdirir, həm də bu cür bağışlama hədiyyə alan tərəfindən heç bir cavab xidməti ilə şərtləndirilmir. Bağışlama müqaviləsi hədiyyə alanın hədiyyəni qəbul etməsi ilə bağlanmış sayılır. Əgər bağışlama öhdəliklə şərtləndirilməyibsə, hədiyyənin qəbul edildiyi ehtimal olunur. Bağışlama predmeti əşyalar, hədiyyə verənə və ya üçüncü şəxsə qarşı əmlak hüquqları (tələbləri), habelə hədiyyə alanın hədiyyə verən və ya üçüncü şəxs qarşısında əmlak vəzifəsindən azad edilməsi ola bilər. Mənəvi və ya əxlaqi borcun icrası bağışlama sayılmır.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət şöbəsi***

### İtmişdir

Ələkbərov Şəmil Kamil oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının baş həkimi Xuraman Hacızadə və poliklinikanın kollektivi iş yoldaşları Eldar Əliyevə, anası
**ZƏHRA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin kollektivi komitənin sədri Bəxtiyar İsmayılova, dayısı
**MEHMAN HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin kollektivi mərkəzin baş həkimi Abasət Hüseynəliyevə, atası
**HƏSƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Şəhər Təcili Tibb Mərkəzinin kollektivi Abasət Hüseynəliyevə, atası
**HƏSƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Naxçıvanpoçt” MMC-nin kollektivi iş yoldaşları Əqil Həsənova, atası
**SƏMƏD HƏSƏNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Şəhər Rabitə İdarəsinin kollektivi iş yoldaşları Əqil Həsənova, atası
**SƏMƏD HƏSƏNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Şərq qapısı” qəzeti redaksiyasının kollektivi iş yoldaşları Şərəf Möhsünovaya və İlahə Quliyevaya, əzizləri
**NİZAMİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Hafizə Mirzəyeva, Bəhriyyə Novruzova, İlhamə Nəsirova, Gülnarə Hümbətova, İradə Əsgərova və Leyla Məmmədxanlı iş yoldaşları Bəhriyyə Əliyevaya, əzizi
**SƏMƏD HƏSƏNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Aysel İsmayılova, Aminə Dünyamalıyeva, Esmira Firudinbəyova və Dilarə Rzayeva iş yoldaşları Bəhriyyə Əliyevaya, əzizi
**SƏMƏD HƏSƏNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ** *qapısı*

**Baş redaktor müavini:**
SƏYYAR MƏMMƏDOV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Kərəm Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və “Əcəmi” NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 4**